# "Azərbaycanda kütləvi halda dini radikalizm yoxdur"

## PƏNAH CAHANGİROV: "BU "YOLUXUCU" XƏSTƏLİYƏ QARŞI ƏN YAXŞI PEYVƏND TƏHSİLDİR"

## SƏYAVUŞ HEYDƏROV: "RADİKAL QRUPLAŞMALARIN TƏRKİBİNDƏ VURUŞAN VƏ ÖLƏN ŞƏXSLƏRİN QADIN VƏ UŞAQLARININ AZƏRBAYCANA GƏTİRİLMƏSİ İSTİQAMƏTİNDƏ DANIŞIQLAR APARILIR"

**AZƏRBAYCANDA** ayrı-ayrı şəxslərin radikal düşüncələri ola bilər. Amma Azərbaycanda kütləvi halda dini radikalizm yoxdur. Buna yalnız cəhdlər edilir. Bunu Azərbaycan Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov "Dini və ideoloji təhlükəsizlik" mövzusunda keçirilən seminar-müşavirədə deyib. Onun sözlərinə görə, dövlət dinlə mübarizə aparmır: "Azərbaycanda nə dövlət, nə də cəmiyyət dinə qarşı ola bilməz. Biz Azərbaycanda yalnız radikalizmə qarşı olmuşuq. Çünki radikalizm xalqımıza məxsus olan hal deyil. Tarixə də nəzər salsaq, görərik ki, azərbaycanlılar heç zaman dini müharibələrdə iştirak etməyiblər. Həttа Babəkin rəhbərliyi ilə aparılan Xürrəmilər hərəkatı da azadlıq uğrunda mübarizə olub. Sovet dövründə bunu bizə islam dininə qarşı aparılan mübarizə kimi təqdim ediblər. Azərbaycan xalqı heç zaman radikal olmayıb. Azərbaycanda dövlət tərəfindən dinə qarşı hər hansı basqının olmasından söhbət gedə bilməz. Dövlət orqanları tərəfindən radikalizmə qarşı mübarizə aparılır".

P.Cahangirov radikalizmə yoluxanların əsasən gənclər olduğunu da söyləyib: "Bu "yoluxucu" xəstəliyə qarşı ən yaxşı peyvənd təhsildir. Təhsil ən gözəl preventiv addımdır. Azərbaycanda dövlət öz risklərini məharətlə idarə edir".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov isə deyib: "Bəzən deyirlər ki, kimsə namazı vaxtından 3-5 dəqiqə tez qılır, burada nə var ki? Amma burada çox ciddi məsələ var. Kimsə Qafqaz Müsəlmanları İdarəsinin müəyyən etdiyi təqvimdən başqa təqvimlə ibadəti həyata keçirirsə, deməк, o vətəndaş artıq "zəhərlənib", yad ideologiyaların təsiri altına düşüb. Bu, artıq insanı uçuruma aparan bir əlamətdir". O bildirib ki, xurafatın əlamətləri dini mərasimlərdə də özünü göstərir: "Sinə döyüb baş yarmaq, qan çıxarmaq İslama ziddir. Bu əlamətlərin olması ənənəvi İslamı zəiflədir. Ona görə də bu gün rəsmi ruhanilərin din sahəsindəki göstərişlərini yerinə yetirməliyik. Bəziləri dini ibadətlərin həyata keçirilməsi zamanı başqa ölkələrin tərtib etdiyi təqvimlərdən istifadə edirlər. Bu, son dərəcə təhlükəli məsələdir". S.Heydərov əlavə edib ki, ənənəvi islamın zəifləməsi qütbləşmənin yaranmasına səbəb olur. "Təəssüf doğuran hal budur ki, bu gün bəzi müsəlman ölkələri də Azərbaycana təsir göstərmək və öz dini ideologiyalarını



Azərbaycana yeritmək istəyirlər". O qeyd edib ki, dünyada qlobal təhlükəsizlik məsələləri əsasında dini və etnik problemlər dayanır: "Lakin bu məsələ özü yaranmır, kimlər tərəfindənsə yaradılır. Dünyada multikulturalizmin, tolerantlığın zəiflədiyi bir dövrdə Azərbaycanda multikulturalizm, tolerantlıq güclənir. Bu, bizim sabitliyimizin təməlini təşkil edir və bizi qürrələndirir. Lakin Qərbdə bəzi qüvvələr Azərbaycanı zəiflətmək niyyətindədirlər və onların təhdidlərini açıq-aydın görürük".

S.Heydərov bildirib ki, bu gün Azərbaycan islamofobiyaya qarşı çox sərt mövqe nümayiş etdirir. Lakin bu, bəzi ölkələrin xoşuna gəlmədiyi üçün onlar tərəfindən də ölkəmizə qarşı əks-mövqe nümayiş etdirilir.

Komitənin sədr müavini əlavə edib ki, Azərbaycan dövlətinə qarşı şər və böhtanlar atılır, burada hədəf dövlətçiliyimizdir: "Biz Şərq ölkələrində baş verən hadisələrdən nəticə çıxarmalıyıq və kimlərinsə bizdən istifadə etməsinə imkan verməməliyik. Bu gün radikalizmin hədəfi gənclərdir. Bu gün gənclər sosial şəbəkələrdən aktiv istifadə edirlər. Nəzərə almaq lazımdır ki, insan bir gecədə radikal olmur. Ona görə də sosial şəbəkələrdən istifadə etdikdə çox diqqətli olmaq lazımdır". Onun sözlərinə görə, bu məsələyə nəzarət edilsə də, sosial şəbəkələrdə onların qarşısını almaq çətindir: "Biz bu şəxsləri əlamətləri ilə tanıyırıq. Onların təhlükəli olduğunu görürük. Onlar dövlətin gücünü bilirlər, ona görə də əməllərini hiss etdirmədən, gizli şəkildə həyata keçirməyə çalışırlar. Biz bunlardan məlumatlıyıq. Bəziləri belə şəxsləri "qəhrəman" kimi təqdim edir və onların əsassız həbs olunduğunu deyirlər. Lakin bu insanlar milli təhlükəsizlik üçün təhdid yaratdıqları üçün həbs olunublar".

Onun sözlərinə görə, radikal dini qruplaşmaların tərkibində Yaxın Şərq ölkələrində vuruşan və ölən şəxslərin qadın və uşaqlarının Azərbaycana gətirilməsi istiqamətində bir sıra dövlətlərlə danışıqlar aparılır. S.Heydərov bildirib ki, radikal qruplaşmaların tərkibində Yaxın Şərq ölkələrində vuruşan 1000-dən artıq azərbaycanlı olub: "Onların 500-dən çoxu orada ölüb, 477 nəfərin vətəndaşlığı ləğv edilib. Valideynləri həmin döyüşlərdə ölən 21 uşaq kimsəsiz qalıb və onlar Azərbaycana gətirilib, yaxınlarına qəyyumluğa verilib. Orada hələ də qadınlar və uşaqlar var, onların gətirilməsi istiqamətində danışıqlar gedir. Hələlik onların verilməsi ilə bağlı problem var. Həbsdə olan və döyüşlərdə iştirak etdiyi üçün edam olunan qadınlar da var. Bəzilərinin məhkəməsi gedir. Qadınlar da özündən asılı olmadan ərlərinin təsiri nəticəsində ora gedib".

Ş.Heydərov qeyd edib ki, radikal qruplaşmaların tərkibində vuruşaraq ölən şəxslərin yaxınları, qadınları, uşaqları bu gün Azərbaycana gələ bilmirlər: "Həmin qrupların öz qaydaları var. Ər ölürsə, qadın, ana, bacı və uşaqlar orada qalmalı və kişi mücahidlərə xidmət etməlidir. Bu, qeyrətdirmi, islamdırmı? Təəssüf ki, bunun daşıyıcıları cəmiyyətimizdə var".

S.Heydərov bildirib ki, Azərbaycanda zaman-zaman dini radikalizmə cəhdlərin ştrixləri olub və Nardaran hadisələri də böyük planın bir hissəsi idi: "Nardaran hadisələri zamanı insanlar ibadət evlərindən gələrək siyasi şüarlar səsləndirir, siyasi motivli çağırışlar edirdilər. Bu isə bir formada dinin siyasiləşdirilməsi deməkdir. Bunlar göstərir ki, dini siyasiləşmə Azərbaycana da yönəlmişdi və ölkəmizdə də milli-mənəvi dəyərlər hədəfə alınmışdı".

*Arzu Məmmədli*